Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 246 (20.900)

29 dekabr 2013-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

# Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyası keçirilmişdir

Dekabrın 28-də dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyası keçirilmişdir.

Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilmişdir:

1. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsinin təsdiq edilməsi
4. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı
5. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) seçilməsi





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar məruzə etmişdir **(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur).**

"Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin təsdiq edilməsi" və "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsinin təsdiq edilməsi" barədə məsələlərin müzakirəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Xalid İsgəndərov, Naxçıvan Muxtar Respublikasının vergilər naziri Əli Mahmudov, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri Rasim Hüseynov çıxış etmişlər.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsi" və "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsi" təsdiq olunmuşdur.

Sonra Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramovanın hesabatı dinlənilmişdir.

Ali Məclisin Sədri gündəlikdə duran növbəti məsələ ilə bağlı bildirmişdir ki, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 4-cü maddəsinə əsasən, Müvəkkil 7 il müddətinə seçilir. Hazırkı Müvəkkil 2006-cı ildə bu vəzifəyə seçildiyindən səlahiyyət müddəti başa çatmışdır. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 10-cu bəndinə əsasən, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) seçilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdimat verməlidir. Bununla əlaqədar olaraq Bayramova Ülkər İmamqulu qızı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsinə seçilmək üçün təqdim olunur.

Səsvermə keçirilmiş və Ülkər Bayramova Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) seçilmişdir. İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) seçilmiş Ülkər Bayramova Ali Məclisin sessiyasında and içmişdir.

Ali Məclisin Sədri sessiyaya yekun vuraraq demişdir ki, 2013-cü ildə muxtar respublika həyatının bütün sahələrində inkişaf təmin olunmuş, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Qarşıdakı dövrdə əldə olunan nailiyyətləri daha da artırmalı, səylə çalışmalıyıq.

2014-cü ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi qeyd olunacaqdır. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi münasibətilə 2014-cü il muxtar respublikada "Muxtariyyət ili" elan olunur. Əminik ki, muxtar respublikamızın yubiley ilində də iqtisadiyyatın dinamik inkişafı davam etdiriləcək, qarşıya qoyulan vəzifələr uğurla icra olunacaq, Azərbaycan tarixinin bir qolu olan Naxçıvan tarixinin və mədəniyyətinin öyrənilməsi sahəsində fəaliyyət daha da güclənəcəkdir.

2013-cü ildə, "Heydər Əliyev ili"ndə muxtar respublikanın inkişafında, sabitliyin və sərhədlərin qorunmasında əməyi olanların hamısına təşəkkürünü bildirən Ali Məclisin Sədri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini, onların ailələrini, şəhid ailələrini və müharibə veteranlarını, sessiya iştirakçılarını, muxtar respublika əhalisini qarşıdan gələn əlamətdar bayramlar – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik etmişdir.

Bununla da, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü çağırış səkkizinci sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun

## MƏRUZƏSİ



Hörmətli deputatlar və sessiya iştirakçıları!

Bu gün biz muxtar respublikada daha bir quruculuq dövrünə – 2013-cü ilə yekun vururuq. Yola saldığımız 2013-cü il Ali Məclisin 2012-ci il 22 dekabr tarixli sessiyasında ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikasında “Heydər Əliyev ili” elan olunmuşdur. Bu mənada 2013-cü il ciddi məsuliyyət və tələbkarlıq mərhələsinə çevrilmiş, ulu öndərin 90 illik yubileyi ilə əlaqədar geniş Tədbirlər Planı təsdiq olunaraq icra edilmiş, sosial-iqtisadi fəaliyyət sahəsində nailiyyətlər daha da artırılmışdır. Əvvəlki dövrlərdə olduğu kimi, 2013-cü ildə də biz bu nailiyyətlərə ulu öndərimizin quruculuq yolunun davam etdirilməsi nəticəsində nail olmuşuq. “Heydər Əliyev ili”nin uğurları bir daha göstərdi ki, xalqı əmin-amanlığa qovuşdurmağa, sabit inkişafı təmin etməyə qadir olan yeganə yol – əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan quruculuq və inkişaf yoludur. Xalq bu yola sadiqdir və onun davamını ölkəmizin inkişafının yeganə aparıcı qüvvəsi kimi qəbul edir.

Azərbaycan xalqının bu inamı öz təsdiqini bir daha 2013-cü ildə keçirilmiş prezident seçkilərində tapdı. Ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisəyə çevrilən 9 oktyabr prezident seçkiləri də göstərdi ki, Azərbaycan xalqı ulu öndərimizin müəyyənləşdirdiyi yolun davam etdirilməsində qərarlıdır. Ümummilli liderimizin siyasi kursuna ardıcıl sədaqət nümayiş etdirən görkəmli dövlət xadimi cənab İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə əldə olunmuş böyük nailiyyətlər daim inkişaf edən və yeniləşən Heydər Əliyev quruculuq xəttinə, dahi rəhbərimizin şanlı yubileyinə xalqımızın layiqli töhfələridir.

Böyük öndərimizin yubileyinə Naxçıvan Muxtar Respublikası da öz töhfəsini vermiş, 2013-cü ildə bütün sahələrdə inkişaf təmin olunmuş, makroiqtisadi göstəricilər daha da artmışdır. Belə ki, 2 milyard 337 milyon manatdan çox Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da bir il əvvəlki müvafiq göstərici ilə müqayisədə 10 faiz çoxdur. Onun hər bir nəfərə düşən həcmi də 2012-ci illə müqayisədə 9 faiz artaraq 5 min 420 manata çatmışdır. Ümumi Daxili Məhsulda maddi istehsal sektorunun 65 faizlik paya malik olması iqtisadi inkişafda dayanıqlığın təmin edilməsinin konkret göstəricisidir.

İqtisadi və sosial sahədə qazanılmış uğurlar, heç şübhəsiz ki, müxtəlif sahələr üzrə, o cümlədən regional inkişafla əlaqədar qəbul olunmuş dövlət proqramlarının vaxtında və tam həcmdə icrası ilə bağlıdır. Muxtar respublikanın 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafını nəzərdə tutan ikinci dövlət proqramının uğurla başa çatdırılması sahibkarlıq fəaliyyətinin inkişafına, əlverişli investisiya mühitinin formalaşdırılmasına, yeni istehsal sahələrinin və iş yerlərinin açılmasına, əhalinin rifah halının yaxşılaşmasına, infrastruktur və kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsinə öz təsirini göstərmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, muxtar respublikanın Ümumi Daxili Məhsulunda özəl bölmənin xüsusi çəkisi artmış və 87 faiz təşkil etmişdir.

Bu gün muxtar respublikanın iqtisadi inkişafının başlıca xüsusiyyəti hər bir rayonun əmək və xammal ehtiyatlarından səmərəli istifadə yolu ilə yeni istehsal və xidmət sahələrinin yaradılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə imkan verən layihələrin həyata keçirilməsindən ibarətdir. Belə layihələrin davamı kimi, istehsal potensialının gücləndirilməsi siyasətinə uyğun olaraq, 2013-cü ildə müxtəliftəyinatlı 122 istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır.

Səmərəli kredit mexanizminin formalaşdırılması yeni istehsal və xidmət sahələrinin yaradılmasını şərtləndirən əsas amillərdəndir. 2013-cü ilin ötən dövrü ərzində muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən həyata keçirilən 42 milyon 800 min manata yaxın kreditləşmənin 17 milyon 305 min manatı, yaxud 40 faizi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə verilmişdir. Sahibkarlıq subyektlərinə göstərilən maliyyə dəstəyinin 5 milyon 960 min manatı fərdi sahibkarlığın inkişafına, 11 milyon 345 min manatı isə özəl bölmədə yeni istehsal sahələrinin yaradılmasına yönəldilmişdir.

Sahibkarlığın inkişafı üçün yaradılmış əlverişli şərait fəaliyyətin bu növünə olan marağın ildən-ilə artması ilə nəticələnmişdir. 2013-cü ildə sahibkarlıq fəaliyyəti ilə bağlı 24 hüquqi və 1162 fiziki şəxs müraciət etmiş, onların hamısı qeydə alınmışdır. Bu bir daha göstərir ki, sahibkarlıq subyektlərinin sayı ilbəil davamlı olaraq artır. Sahibkarların sayının artması, öz növbəsində, muxtar respublikada istehsal olunan məhsulların və göstərilən xidmətlərin çeşidinin də artmasına, müxtəlif məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına müsbət təsir göstərir. Artıq bu gün muxtar respublikada 115 növdə, 459 çeşiddə ərzaq, 231 növdə, 529 çeşiddə qeyri-ərzaq məhsullarının istehsalı üçün bütün imkanlar vardır. 2013-cü ildə 106-sı ərzaq və 226-sı qeyri-ərzaq olmaqla, 332 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilmişdir.

Yeni istehsal sahələrinin yaradılması daxili tələbat məhsulları istehsalı ilə yanaşı, məşğulluq problemlərinin həllinə də əhəmiyyətli təsir göstərmiş, 2013-cü ildə 2127 yeni iş yeri açılmışdır. Onun 92 faizi və ya 1960-ı daimi iş yerləridir.

Son illər **sənaye**ləşmə muxtar respublikamızda həyata keçirilən iqtisadi siyasətin mühüm tərkib hissəsinə çevrilmişdir. Yerli xammaldan səmərəli istifadəyə əsaslanan yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması Ümumi Daxili Məhsul istehsalında bu sektorun həcminin ildən-ilə artmasını təmin etmişdir. Belə ki, 2013-cü ildə sənaye 29 faizlik payla Ümumi Daxili Məhsulun tərkibində ilk yerə sahib olmuş, istehsalın həcmi bir il öncə ilə müqayisədə artaraq 863 milyon manata çatmışdır. Bunun da 93 faizə qədəri, yaxud 799 milyon manatdan çoxu özəl bölmənin payına düşür.

Müasir texnologiyalara əsaslanan yeni sənaye müəssisələrinin işə salınması daxili tələbatı yüksəkkeyfiyyətli məhsullarla təchiz etməklə yanaşı, onların ixrac potensialını da artırmışdır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, cari ilin ötən dövründə 241 milyon manatlıq sənaye məhsulu ixrac olunmuşdur.

Muxtar respublikada sənayenin üstün inkişafına baxmayaraq, **kənd təsərrüfatı** həmişə öz aparıcı mövqeyini qorumuşdur. Əhalinin ərzaq məhsullarına, emal müəssisələrinin isə xammala olan tələbatının ödənilməsindəki rolu, həmçinin əhali məşğulluğunun təmin olunmasındakı yeri nəzərə alınaraq kənd təsərrüfatının inkişafı hər zaman diqqət mərkəzində saxlanılmışdır. Son illər aqrar sektorda çalışanlara müxtəliftəyinatlı güzəştli kreditlərin verilməsi, yeni texnika və avadanlıqların alınıb gətirilməsi, meliorativ tədbirlərin həyata keçirilməsi, satış yarmarkalarının təşkili bu sahəyə olan marağı artırmış, məhsuldarlıq yüksəlmişdir. Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi kimi 2013-cü ildə muxtar respublikada 337 milyon manatdan çox kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da əvvəlki illə müqayisədə əhəmiyyətli artım deməkdir.

Ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə 2008-ci il sentyabrın 17-də qəbul olunmuş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” keyfiyyətli və təhlükəsiz ərzaq istehsalında mühüm rola malikdir. Dövlət proqramının icrası nəticəsində kənd təsərrüfatının inkişafı sahəsində yeni imkanlar yaranmışdır. Əmək potensialının, əsasən, kənd yaşayış məntəqələrində cəmləşməsi, əlverişli iqlim və torpaq şəraiti, tarixən formalaşmış məşğulluq ənənələrinin mövcudluğu muxtar respublikada əkinçiliyin üstün inkişafını təmin etmiş, əkin sahələrinin həcmi artırılmış, 2013-cü ilin məhsulu üçün muxtar respublikada 60 min 127 hektar sahədə əkin aparılmışdır.

Məhsul istehsalçılarının müasir texnika və mineral gübrələrlə təchizatı da əkinçiliyin inkişafına öz təsirini göstərmişdir. 2013-cü ildə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 348 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir. Hazırda bu təşkilat tərəfindən gətirilən texnikaların sayı 1227-yə çatmışdır. Gətirilmiş texnikalardan 253-ü 2013-cü ildə lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. Bununla yanaşı, torpağın məhsuldarlığını artırmaq məqsədilə əkinçiliklə məşğul olan fermerlərə 4 min 124 ton mineral gübrə də verilmişdir. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətini genişləndirmək və xidmətlərin səviyyəsini daha da yaxşılaşdırmaq məqsədilə onun muxtar respublikanın bütün rayonlarda filiallarının yaradılması davam etdirilmiş, 2013-cü ildə Cəmiyyətin Şahbuz rayon filialı istifadəyə verilərək lazımi texnika ilə təchiz olunmuşdur.

Muxtar respublikada suvarma əkinçiliyinin geniş yayılması **meliorasiya-irriqasiya** sistemlərinin təkmilləşdirilməsini və yeniləşdirilməsini tələb edir. Bu sahədə görülən tədbirlərin davamı olaraq, 2013-cü ildə 4 nasos stansiyası, 3 subartezian quyusu və 11 kəhriz istifadəyə verilmişdir.

Kənd təsərrüfatında **taxılçılıq** 2013-cü ildə də üstün mövqeyi ilə seçilmişdir. 35 min 324 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 25 min 869 hektarını buğda təşkil etmişdir. Əvvəlki dövrə nisbətən taxıl əkini sahələrinin həcmi 359 hektar artırılmışdır. Taxıl zəmilərindən 102 min 960 ton məhsul toplanmışdır ki, bu da 2012-ci illə müqayisədə 1112 ton çoxdur. Taxıl istehsalının artımı ilə yanaşı, taxıl ehtiyatının yaradılması imkanları da yaxşılaşdırılmış, ümumi tutumu 9 min ton olan üç yeni bunker istifadəyə verilmişdir. Bununla da, Naxçıvan Muxtar Respublikasında taxılı uzun müddətə saxlamağa imkan verən anbarın həcmi 18 min tondan 27 min tona çatdırılmışdır. Bundan başqa, Culfa rayonunun Camaldın kəndində qədim su dəyirmanı bərpa olunaraq əhalinin istifadəsinə verilmişdir.

**Kartofçuluğ**un inkişafında da müsbət dinamika saxlanılmış, 2957 hektar sahədə kartof əkilmişdir. Əkin sahələrindən 41 min tondan çox məhsul götürülmüş, kartof istehsalı keçən illə müqayisədə artırılmışdır.

Muxtar respublika həmişə özünün ekoloji cəhətdən saf və təmiz meyvə-tərəvəz məhsulları ilə tanınıb. 2012-ci il fevralın 14-də qəbul olunmuş “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin icrası bu sahəyə olan marağı daha da artırmışdır. 2013-cü ildə tərəvəz məhsullarının istehsalı məqsədilə 359 min manat, bağçılıq təsərrüfatlarının inkişafı üçün isə 538 min manat kredit verilmişdir. Görülmüş işlərin nəticəsidir ki, məhsuldarlıq artmış, əkin sahələrindən 67 min tona yaxın tərəvəz, meyvə bağlarından 43 min tondan çox meyvə, 15 min tondan çox üzüm toplanmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalını stimullaşdıran amillərdən biri də bu məhsulların keyfiyyətlə saxlanmasına və il boyu satışına imkan verən soyuducu anbarların yaradılmasıdır. Cari ildə tutumu 250 ton olan 2 soyuducu anbar istifadəyə verilmiş, soyuducu anbarların sayı 17-yə, ümumi tutumu isə 12 min tona çatdırılmışdır.

Muxtar respublikada **heyvandarlıq** məhsullarının istehsalını artırmaq üçün mütərəqqi təsərrüfatçılıq metodları təşviq olunmuş, müasir tələblərə cavab verən 2 yeni heyvandarlıq təsərrüfatı yaradılmışdır. Malqaranın cins tərkibini yaxşılaşdırmaq və damazlıq sahəsini inkişaf etdirmək məqsədilə 2013-cü ildə 337 baş, ümumilikdə isə son 5 ildə 1678 baş cins mal-qara gətirilərək lizinq yolu ilə fermerlərə verilmişdir.

Daxili bazarda quş əti və yumurtaya olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsi tədbirlərinə uyğun olaraq, cari ildə 13 yeni quşçuluq təsərrüfatı yaradılmış, quşçuluq təsərrüfatlarının ümumi sayı 59-a çatdırılmışdır.

*Ardı 3-cü səhifədə*

Bundan əlavə, muxtar respublikada fəaliyyət göstərən quşçuluq təsərrüfatlarının fəaliyyətini əlaqələndirmək üçün Naxçıvan Muxtar Respublikası Quşçuluq Birliyi yaradılmışdır.

Arıçılığın inkişafına da diqqət artırılmışdır. Bu sahəyə maliyyə dəstəyi gücləndirilmiş, balın emalı və qablaşdırılması ilə məşğul olan istehsal sahələri istifadəyə verilmişdir. 2013-cü ilin əvvəlinə arıçılıq təsərrüfatlarında 65 mindən çox arı ailəsi mövcud olmuşdursa, il ərzində onların sayı artırılaraq 69 minə çatdırılmışdır. Bu artım bal istehsalının həcminə də öz təsirini göstərmiş, əvvəlki illə müqayisədə 2013-cü ildə 11 faiz artıq, yəni 1300 tondan çox bal istehsal edilmişdir.

Muxtar respublikada **ekoloji** vəziyyətin daha da yaxşılaşdırılması, təbii sərvətlərin qorunması, onlardan səmərəli istifadənin təmin olunması istiqamətində də mühüm tədbirlər görülür. Bununla bağlı hər il keçirilən yaşıllaşdırma tədbirlərinin böyük əhəmiyyəti vardır. 2013-cü ildə 531 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 400 mindən çox ağac və gül kolu əkilmişdir.

Sosial-iqtisadi inkişaf üzrə əldə olunmuş nailiyyətlərin daha da artırılmasında səmərəli investisiya siyasəti mühüm əhəmiyyətə malikdir. Muxtar respublikada aparılan dövlət investisiya siyasətinin başlıca məqsədi kapital qoyuluşlarının sosial və iqtisadi cəhətdən zəruri olan layihələrə yönəldilməsini təmin etməkdən ibarətdir. 2013-cü ildə bütün maliyyə mənbələri hesabına **əsas kapitala investisiya qoyuluşları**nın həcmi 1 milyard 38 milyon manat təşkil etmişdir.

Muxtar respublikamızda insanların rahat yaşayışı üçün mənzil-kommunal xidmətlərinin səviyyəsi artırılır, zəruri infrastruktur layihələri icra olunur. 2013-cü ildə 592 obyekt tikilərək, əsaslı bərpa olunaraq və ya yenidən qurularaq istifadəyə verilmişdir. Görülən işlərin əhatə dairəsinin ildən-ilə genişlənməsi hesabına tikinti-quraşdırma tədbirlərinə sərf olunan maliyyə vəsaitlərinin həcmi də artmışdır. Cari ildə əsas kapitala investisiya qoyuluşlarının 89 faizə qədəri və ya 919 milyon manatdan çoxu tikinti-quraşdırma işlərinə sərf olunmuşdur.

Funksional təyinatına görə digər tikililərdən fərqlənən kənd mərkəzlərinin inşasına diqqət artırılmışdır. İdarəçiliyin mərkəzləşdirilmiş qaydada təşkilinə və sakinlərin zəruri xidmətlərlə çevik təminatına imkan verən bu mərkəzlər yaxın perspektivdə muxtar respublikanın bütün qəsəbə və kəndlərini əhatə edəcəkdir. 2013-cü ildə 20 kənd mərkəzi tikilmiş və yenidən qurulmuş, ümumilikdə, muxtar respublikadakı kənd mərkəzlərinin sayı 104-ə çatdırılmışdır. Kənddə yaşayan əhalinin zəruri istehlak mallarını sərfəli qiymətlərlə əldə etməsinə, həmçinin müxtəlif məişət xidmətlərindən yerindəcə istifadəsinə imkan verən xidmət mərkəzlərinin də yaradılması diqqət mərkəzində saxlanılmış, 2013-cü ildə 21 xidmət mərkəzi tikilmiş və ya yenidən qurulmuşdur. Bütövlükdə, kənd və qəsəbələrdə 76 xidmət mərkəzi istifadəyə verilmişdir.

Əhalinin şəxsi vəsaiti hesabına aparılan inşaat işlərinin də həcmi artmışdır. Cari ildə əhali tərəfindən tikilən mənzillərin sahəsi 358 min kvadratmetrdən artıq olmuşdur ki, bu da bir il əvvəlki nəticə ilə müqayisədə 8 min 248 kvadratmetr çoxdur.

Mənzil-kommunal təsərrüfatı sektorunda xidmətlərin müasir standartlara uyğunlaşdırılması, bu sahədə infrastrukturun yeniləşdirilməsi, məişət tullantılarının vaxtında daşınması işinin operativ təşkili məqsədilə cari ildə də muxtar respublikaya yeni texnika və avadanlıqlar alınıb gətirilmişdir. Əhalinin rahatlığına və yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması tədbirlərinin tərkib hissəsi kimi içməli su xətlərinin və kanalizasiya şəbəkələrinin tikintisi Naxçıvan şəhəri, rayon mərkəzləri və ətraf kəndlər üzrə davam etdirilmiş, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilmişdir.

Sosial-iqtisadi tərəqqidə dinamik artım meyillərinin qorunub saxlanılması maddi istehsalın üstün inkişafı ilə yanaşı, infrastrukturun yenilənməsindən və burada müasir standartların tətbiqindən xeyli dərəcədə asılıdır. Bu baxımdan muxtar respublikada **yol-nəqliyyat** infrastrukturunun inkişafına xüsusi əhəmiyyət verilir, nəqliyyat kompleksi yenilənərək beynəlxalq standartlara uyğun təşkil edilir, yeni yollar salınır. Bu gün magistral yollarının böyük əksəriyyətinin yenidən qurulduğu muxtar respublikamızda kənddaxili və kəndlərarası yolların da abadlaşdırılması diqqətdən kənarda qalmır, bu məqsədlə xüsusi maliyyə vəsaitlərinin ayrılması təmin edilir. Ölkə Prezidenti 2013-cü il 5 mart tarixli Sərəncamla Babək rayonunun 13 yaşayış məntəqəsini əhatə edən 25,6 kilometr uzunluğunda Hacıvar-Vayxır-Sirab yolunun tikintisinə 6 milyon 300 min manat vəsait ayırmışdı. Artıq hörmətli Prezidentimizin Sərəncamı icra olunmuş, tikinti işləri başa çatdırılmışdır. Ümumilikdə isə 2013-cü ildə muxtar respublikada 164 kilometr uzunluğunda yollar salınmış və ya əsaslı təmir olunmuş, 21 körpü tikilərək, 12 körpü isə təmir olunaraq istismara verilmişdir.

Müasir dünyada ölkələrin rəqabətə davamlılığı, ilk növbədə, **informasiya-kommunikasiya** texnologiyalarından səmərəli istifadə ilə ölçülür. Bu amil nəzərə alınaraq ölkəmizdə yeni informasiya texnologiyalarının tətbiqi diqqət mərkəzində saxlanılır. 2013-cü ilin Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi bu sahənin inkişafına göstərilən diqqətin daha bir təzahürüdür. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı muxtar respublikamızda da Tədbirlər Planı təsdiq olunmuş və müvafiq işlər görülmüşdür. Telekommunikasiya infrastrukturu müasirləşdirilmiş, Naxçıvan şəhərində, Şərur və Sədərək rayonlarında 3-cü nəsil telekommunikasiya sistemləri quraşdırılmışdır. Hazırda bu sistem mövcud telefon istifadəçilərinin 57 faizinə xidmət göstərir. Avtomat telefon stansiyalarının 94 faizi fiber-optik bağlantılarla təmin edilmişdir. İnformasiya cəmiyyətinin formalaşmasında xüsusi əhəmiyyətə malik olan "Elektron hökumət"in qurulması istiqamətində ardıcıl tədbirlər görülmüş, "Elektron hökumət" portalı yaradılmışdır. Muxtar respublikada keyfiyyətli televiziya və radio yayımının təşkili məqsədilə tədbirlər görülmüşdür. Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 75 faizində rəqəmli yayım təşkil edilmişdir.

Poçt xidmətlərinin müasir tələblər səviyyəsində qurulmasını, ənənəvi xidmətlərlə yanaşı, əhaliyə yerlərdə poçt-maliyyə xidmətlərinin də göstərilməsini və kommunal xidmət haqlarının poçtlar vasitəsilə yığılmasını təmin etmək, eləcə də bu sahədə idarəetməni təkmilləşdirmək məqsədi ilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır.

Muxtar respublikanın **enerji təhlükəsizliyi** həyati əhəmiyyətli məsələdir. Ona görə bu sahədə görülən işlər 2013-cü ildə də davam etdirilmiş, Şərur rayonunda 20,5 meqavat gücündə Arpaçay Su Elektrik Stansiyası tikilərək istifadəyə verilmişdir. Ordubad rayonunda 36 meqavat gücündə "Ordubad", Şərur rayonunda isə 1,4 meqavat gücündə "Arpaçay-2" su elektrik stansiyalarının tikintisi davam etdirilir. Muxtar respublikada həyata keçirilən enerji layihələri deməyə əsas verir ki, yaxın illərdə daxili tələbat tamamilə su elektrik stansiyaları hesabına ödəniləcəkdir ki, bu da istehsal prosesinin ən rentabelli formasıdır.

Enerji təhlükəsizliyini təmin edən mühüm faktorlardan biri də muxtar respublikanın **təbii qaz**la tam təmin olunmasıdır. İstehlakçıların təbii qazla fasiləsiz təchiz olunması ilə yanaşı, mövcud infrastrukturun yenilənməsi də diqqət mərkəzində saxlanmış, istismar müddəti ötmüş qaz xətlərinin yenilənməsi təmin olunmuşdur. 2013-cü ildə 81,6 kilometr uzunluğunda Naxçıvan-Sədərək yüksəktəzyiqli qaz xəttində tikinti işləri başa çatdırılaraq istifadəyə verilmişdir.

Elektrik enerjisi və təbii qazla fasiləsiz təminat enerji və qazdan istifadəyə görə vəsaitlərin toplanmasına da öz təsirini göstərmiş, istehlak olunan enerji daşıyıcılarının dəyəri abonentlər tərəfindən tam həcmdə ödənilmişdir.

Enerji daşıyıcıları sahəsində davam etdirilən yeniləşmə **payız-qış mövsümünə hazırlıq**la bağlı problemlərin də aradan qaldırılmasına imkan vermişdir. Hər il olduğu kimi, 2013-cü ildə də qış mövsümünə hazırlıqla əlaqədar Ali Məclisdə müşavirə keçirilərək aid orqanlar qarşısında konkret vəzifələr müəyyənləşdirilmişdir. Artıq Naxçıvan şəhəri ilə yanaşı, rayon mərkəzlərindəki çoxmərtəbəli yaşayış binaları da qış aylarında fasiləsiz istiliklə təmin olunur. Bu sahədə fəaliyyəti daha da təkmilləşdirmək məqsədilə cari ildə 12 qazanxana tikilərək istifadəyə verilmişdir. Təhsil, səhiyyə, mədəniyyət obyektlərinin böyük bir qisminin, idman müəssisələrinin isə hamısının mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz olunması qış mövsümündə bu təşkilatların normal fəaliyyətinə şərait yaratmışdır.

Sosial-iqtisadi sahədə əldə olunan nailiyyətlər əhali rifahının davamlı yüksəlişinə səbəb olmuş, 2013-cü ildə bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği artaraq 377 manata çatmışdır. 2013-cü ildə ölkə rəhbərinin sərəncamlarına əsasən, minimum əməkhaqqının və pensiyaların baza hissəsinin, eləcə də müxtəlif peşə sahiblərinin əməkhaqlarının orta hesabla 10 faiz artırılması da əməkhaqqı artımına müsbət təsir göstərmişdir.

Əməkhaqqı artımı, eləcə də yeni istehsal və xidmət sahələrinin yaradılması **əhali gəlirləri**nin artması ilə nəticələnmişdir. 2013-cü ildə muxtar respublikada əhalinin gəlirləri keçən ilə nisbətən 7 faiz artmış və 1 milyard 737 milyon manatdan çox olmuşdur.

Gəlirlərin həcmində müşahidə olunan irəliləyiş əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsində, istehlak bazarında əmtəə dövriyyəsinin və pullu xidmətlərin artımında da özünü daha qabarıq şəkildə göstərir. 2013-cü ildə muxtar respublikanın istehlak bazarında əhaliyə 1 milyard 289 milyon manatdan çox istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir ki, bu da əvvəlki ilin göstəricilərindən 13 faiz çoxdur.

İqtisadi sahədə əldə olunan artım, öz növbəsində, muxtar respublika büdcəsinin və Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin də artmasına səbəb olmuşdur. 2013-cü ilin ötən dövründə muxtar respublika büdcəsinin gəlirləri 59 milyon 464 min manat olmuşdur. Pensiya və müavinətlərin ödənilməsinə yönəldilmiş vəsaitin 51 faizi, yaxud 52 milyon 635 min manatı məcburi dövlət sosial sığorta haqqı şəklində toplanmışdır.

Dövriyyədə olan nağd pul kütləsinin həcminin azaldılmasında və vergidənyayınma hallarının qarşısının alınmasında əməliyyatların nağdsız hesablaşmalar vasitəsilə aparılması mühüm şərtdir. Bu məqsədlə cari ilin ötən dövründə ticarət və satış obyektlərində 131 POS-terminal quraşdırılmış və ümumilikdə, fəaliyyət göstərən POS-terminalların sayı 227-yə çatdırılmışdır.

2013-cü ilin ötən dövründə muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən 58-i hüquqi, 7 min 702-si isə fiziki şəxs olmaqla, 7 min 760 bank hesabı açılmışdır. Açılmış bank hesablarından 7 min 706-sı və ya 99 faizi aktiv hesablardır. Cari ilin ötən dövründə banklar tərəfindən dövriyyəyə 716 milyon 600 min manata yaxın pul kütləsi buraxılmışdır.

Muxtar respublika iqtisadiyyatının dinamik inkişafı **xarici ticarət** əlaqələrinin genişlənməsinə də şərait yaradır. 2013-cü ildə xarici ticarət dövriyyəsinin həcmi əvvəlki ilə nisbətən 11 faiz artaraq 501 milyon 493 min ABŞ dolları təşkil etmişdir ki, bunun da 389 milyon 915 min ABŞ dolları ixracın, 111 milyon 578 min ABŞ dolları isə idxalın payına düşmüşdür. İxracın idxalı üstələməsi nəticəsində xarici ticarət dövriyyəsində 278 milyon 337 min ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

2013-cü il təkcə makroiqtisadi göstəricilərlə deyil, eyni zamanda elm, təhsil, səhiyyə və digər sahələrdə uğurlu nəticələrin qazanılması, əvvəlki illərdən başlanmış mütərəqqi islahatların daha geniş vüsət alması ilə də yaddaqalan olmuşdur. 2013-cü ildə **elm və təhsil**in, intellektual əməyin inkişafı sahəsində bir sıra tədbirlər görülmüş, elmi-tədqiqat müəssisələrinin və təhsil ocaqlarının fəaliyyəti üçün ən müasir şəraitin yaradılması istiqamətində işlər davam etdirilmişdir. Naxçıvana həsr olunmuş çoxlu sayda kitab, albom, elmi-kütləvi məqalə, qəzet və jurnal materiallarının, sənədli filmlərin, elektron daşıyıcıların qorunub saxlanılması, tədqiq və təbliğ olunması məqsədi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi yaradılaraq fəaliyyətə başlamışdır.

2013-cü ildə elmi kadrların sayı artmış, 4 nəfər elmlər doktoru, 10 nəfər isə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. Ali təhsil və elm mərkəzlərində 6 beynəlxalq, 65 respublika və ali məktəb əhəmiyyətli konfrans və simpoziumlar keçirilmişdir. Alim və tədqiqatçıların 72 kitab və monoqrafiyası, 23 metodiki vəsaiti, 1500-dən çox elmi məqalə və tezisi çap olunmuşdur. Ali Məclis Sədrinin 2012-ci il 6 avqust tarixli Sərəncamına uyğun olaraq, "Naxçıvan tarixi" çoxcildliyinin fundamental elmi əhəmiyyət kəsb edən birinci cildi hazırlanaraq çap edilmişdir.

Hər bir xalqın intellektual potensialını formalaşdıran və elmi səviyyəsini yüksəldən əsas sahə **təhsil**dir. Təsadüfi deyildir ki, ümummilli liderimiz təhsilin inkişafını diqqət mərkəzində saxlayaraq deyirdi: ***"Təhsil uşaqları, gəncləri gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis kimi hazırlayan müqəddəs bir sahədir".*** İstənilən dövrdə iqtisadiyyatın inkişafında aparıcı amil olan təhsil eyni zamanda yüksək mədəni və intellektual səviyyəli cəmiyyətin formalaşmasında da əhəmiyyətli rola malikdir. Bu amil nəzərə alınaraq muxtar respublikamızda təhsil infrastrukturunun yenilənməsi, müasir tədris vasitələri ilə təchiz olunmuş məktəb binalarının tikintisi hər il diqqət mərkəzində saxlanılır. 2013-cü ildə Naxçıvan şəhərində 972 şagird yerlik 10 nömrəli, 846 şagird yerlik 16 nömrəli, Şərur rayonunun Sərxanlı kəndində 234, Dəmirçi kəndində 1026, Xanlıqlar kəndində 396, Şahbulaq kəndində 110, Gümüşlü kəndində 132, Babək rayonunun Şəkərabad kəndində 306, Çeşməbasar kəndində 234, Ordubad rayonundakı Sabirkənddə 378, Əlahi kəndində 88, Bist kəndində 154, Xurs və Nürgüt kəndlərinin hər birində 110, Nəsirvaz kəndində 88, Culfa rayonunun Kırna kəndində 306, Teyvaz kəndində 110, Şahbuz rayonunun Kükü kəndində 198, Ayrınc və Qızıl Qışlaq kəndlərinin hər birində 110, Kəngərli rayonunun Xok kəndində 1080 şagird yerlik tam orta məktəb binaları istifadəyə verilmiş, Babək rayonunun Cəhri və Sədərək rayonunun Sədərək kəndlərinin hər birində 828 şagird yerlik məktəb binalarının yenidən qurulması, Culfa rayonunun Ərəfsə kəndində 320 və Şurud kəndində 90 şagird yerlik məktəb binalarının isə əsaslı təmiri başa çatdırılmışdır.

*Ardı 4-cü səhifədə*

Ümumilikdə, 2013-cü ildə 9 min 164 şagird yerlik 25 tam orta məktəb binasında tikinti, yenidənqurma və əsaslı təmir işləri həyata keçirilmişdir.

Aydındır ki, qabaqcıl texnologiyalar tətbiq edilmədən təhsil sistemini irəli aparmaq mümkün deyil. Bu baxımdan təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblər səviyyəsində möhkəmləndirilməsi, informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilməsi xüsusi diqqət yetirilən məsələlərdəndir. Hazırda muxtar respublikanın ümumtəhsil müəssisələri hər 13 şagirdə bir kompüter olmaqla, 3409 dəst kompüterlə təchiz olunmuşdur. Onlardan 2849-u və ya 84 faizi internetə qoşulmuşdur. Bundan başqa, tədrisin keyfiyyətini yüksəltmək məqsədilə orta məktəblərdə 548 elektron lövhə quraşdırılaraq müəllim və şagirdlərin istifadəsinə verilmişdir.

Təhsilin inkişafına göstərilən diqqət və qayğı bu sahədə keyfiyyət göstəricilərinin də ilbəil yaxşılaşmasına səbəb olmuşdur. 2013-cü ildə qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 1677 nəfəri ali məktəblərin, 515 nəfəri isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışdır. Cari ildə 500-dən yuxarı bal toplayan tələbələrin sayı ötən ilə nisbətən artaraq 312 nəfər olmuşdur. Onlardan 6-sı Prezident təqaüdünə, təhsildə qazandığı yüksək nailiyyətlərə görə isə 3 məktəb ilin "Ən yaxşı ümumtəhsil məktəbi", 5 müəllim "Ən yaxşı müəllim" mükafatına layiq görülmüşdür.

Məktəbəqədər təhsil uşaqların intellektual inkişafında, məktəbə hazırlanmasında, bacarıq və vərdişlərinin formalaşmasında mühüm rol oynayır. Ona görə də muxtar respublikamızda bu sahəyə xüsusi diqqət yetirilir, yeni uşaq bağçaları tikilir, onlar lazımi avadanlıqlarla təmin edilir. 2013-cü ildə Ordubad şəhərində 242, Heydərabad qəsəbəsində isə 144 yerlik uşaq bağçaları istifadəyə verilmişdir. Naxçıvan şəhərində və Babək qəsəbəsində uşaq bağçalarının tikintisi davam etdirilir. Bununla yanaşı, uşaq musiqi məktəbləri şəbəkəsinin genişləndirilməsi də diqqətdə saxlanmış, Naxçıvan şəhərində Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi tikilərək, 3 nömrəli Uşaq Musiqi Məktəbi üçün bina isə yenidən qurularaq istifadəyə verilmişdir.

Gənc nəslin təhsili və təlim-tərbiyəsi qədər onların sağlam böyüməsi də vacibdir. Ümumiyyətlə, əhali sağlamlığının qorunmasında **səhiyyə** müəssisələrinin müasir tələblərə uyğun fəaliyyəti mühüm əhəmiyyət daşıyır. Səhiyyə sahəsində siyasətin başlıca məqsədi əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin edilməsindən ibarətdir. Bunun üçün müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə müəssisələri tikilir, burada çalışanların peşəkarlığının artırılması məqsədilə tədbirlər görülür. Səhiyyə sistemində genişmiqyaslı infrastruktur quruculuğu tədbirlərinə uyğun olaraq 2013-cü ildə Şərur rayonunun Dəmirçi, Xanlıqlar və Sərxanlı, Babək rayonunun Çeşməbasar, Ordubad rayonunun Bist, Culfa rayonunun Kırna, Kəngərli rayonunun Xok, Şahbuz rayonunun Kükü və Qızıl Qışlaq kəndlərində həkim ambulatoriyaları, Şərur rayonunun Günüşlü və Şahbulaq, Babək rayonunun Şəkərabad, Ordubad rayonunun Nürgüt, Nəsirvaz, Ələhi və Xurs, Culfa rayonunun Teyvaz, Şahbuz rayonunun Güney Qışlaq və Ayrınc kəndlərində isə feldşer-mama məntəqələri istifadəyə verilmiş, Babək Rayon Mərkəzi Xəstəxanasının tikintisi, Kəngərli Rayon Xəstəxanasının və Şahbuz rayonunun Sələsüz kəndində isə həkim ambulatoriyasının yenidən qurulması başa çatdırılmış, bütövlükdə, 22 səhiyyə müəssisəsi tikilmiş və ya yenidən qurulmuşdur.

Cari ildə əhalinin sosial müdafiəsi sahəsində də tədbirlər davam etdirilmiş, qayğıya ehtiyacı olan 30 nəfərə minik avtomobili verilmiş, iki ailə üçün fərdi yaşayış evi tikilmişdir.

Hər bir millətin gələcəyi onun gəncliyinin necə yetişməsindən asılıdır. Muxtar respublikada bu sahəyə olan qayğının nəticəsidir ki, bu gün məşğul əhalinin əksəriyyətini gənclər təşkil edir. Gənclərin sağlam, vətənpərvər ruhda yetişmələri, cəmiyyətin müxtəlif sahələrində fəal iştiraklarının təmin olunması üçün hərtərəfli şərait yaradılıb.

Həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri də **bədən tərbiyəsi və idman**ın kütləviliyinin təmin edilməsidir. Bununla bağlı bir sıra tədbirlər görülmüş, Atıcılıq, Hava və Ekstremal İdman Növləri federasiyaları yaradılmış, Naxçıvan şəhərində Atıcılıq Mərkəzi, Babək rayonunda Uşaq-Gənclər Şahmat Məktəbi üçün yeni bina istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublika Stadionunda yenidənqurma işləri aparılmışdır. "Araz-Naxçıvan" Futbol Klubunun peşəkar futbola qayıdışı təmin olunmuşdur.

Mövcud idman potensialı muxtar respublikada beynəlxalq turnir və yarışların keçirilməsinə də əlverişli şərait yaratmışdır. Cari ildə "Naxçıvan Open-2013" Beynəlxalq Şahmat Festivalının və yunan-Roma güləşi üzrə gənclər arasında "Naxçıvan kuboku" uğrunda Beynəlxalq Turnirin, futbol üzrə Azərbaycan kubokunun final yarışının, eləcə də digər idman yarışlarının keçirilməsi muxtar respublikada idmanın kütləviliyinin artırılması baxımından əhəmiyyətli olmuşdur.

"Heydər Əliyev ili"ndə tarixi-mədəni irsin qorunması və təbliği, mədəni potensialın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanmış, **mədəniyyət** obyektlərinin inşası və təmiri davamlı xarakter almışdır. 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin inzibati binası və sərgi salonu tikilərək, Naxçıvan şəhərində Saat meydanı və parkı yaradılaraq istifadəyə verilmişdir.

Tarixi abidələr qədim irsimizin, milli mədəniyyətimizin öyrənilməsində əvəzsiz mənbədir. Xalqımızın tarixini özündə yaşadan abidələr həm də milli dəyərlərimizin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Ona görə də muxtar respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin bərpası davam etdirilmiş, Naxçıvan şəhərində "Buzxana" tarix-memarlıq abidəsi bərpa olunaraq istifadəyə verilmişdir.

Tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin öyrənilməsi və təbliği, gələcək nəsillərə çatdırılması işində muzeylər əhəmiyyətli rol oynayırlar. Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Naxçıvanın tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır. Cari ildə Ordubad rayonunun Nəsirvaz kəndində "Gəmiqaya" Tarix-Bədii Qoruğu və Muzey üçün bina tikilmiş, Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yenidən qurulmuşdur.

Milli-mədəni dəyərlərimizin qorunması tədbirləri çərçivəsində xalq tətbiqi sənətinin əsas qollarından olan xalçaçılığın təbliği məqsədi ilə aparılan elmi araşdırmalar nəticəsində nəfis tərtibatda "Naxçıvan xalçaçıları" kitabı və "Azərbaycan xalçaları: Naxçıvan qrupu" jurnalı çap olunmuş, "Naxçıvan xalçaları" sənədli filmi çəkilmişdir. Yenidənqurmadan sonra istifadəyə verilən Naxçıvan Dövlət Xalça Muzeyinin ekspozisiyası zənginləşdirilmiş, muzeyin internet saytı hazırlanmışdır.

Bu gün muxtar respublikada dini dəyərlərin yaşadılması istiqamətində də ardıcıl tədbirlər görülür, dini abidələrin bərpasına və yenidən qurulmasına hərtərəfli diqqət yetirilir. 2013-cü ildə Culfa rayonunun Əbrəqunus kəndində yeni məscid tikilərək, Teyvaz kəndində isə məscid binası bərpa olunaraq dindarların ixtiyarına verilmişdir.

Naxçıvan torpağı Azərbaycan elminə, mədəniyyətinə, ədəbiyyatına dahi şəxsiyyətlər bəxş etmişdir. Bu şəxsiyyətlərin xalqımız qarşısında xidmətləri heç vaxt unudulmur, onların xatirəsi əziz tutulur. 2013-cü ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Xalq şairi Məmməd Arazın 80, İslam Səfərlinin 90 illik yubileyləri təntənəli şəkildə qeyd olunmuş, Məmməd Araz irsinin öyrənilməsi və təbliği məqsədi ilə şairin doğulub boya-başa çatdığı Nursu kəndində ev-muzeyinin yaradılması qərara alınmışdır.

Muxtar respublikada kitabxana işinin müasir standartlar səviyyəsində qurulması və elektron kitabxanaların yaradılması sahəsində də başlanmış işlər davam etdirilmiş, Naxçıvan Muxtar Respublika Kitabxanasında, Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzində, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetində elektron kitabxanalar, eləcə də Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidməti yaradılmışdır.

Müasir dünyada **turizm** sektoru iqtisadi cəhətdən ən gəlirli və perspektivli sahələrdən biridir. Zəngin mədəni-tarixi irsə və əlverişli təbii şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Hazırda muxtar respublikada iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Belə tədbirlərin davamı kimi Şahbuz rayonu ərazisində müasir standartlara uyğun Ağbulaq İstirahət Mərkəzi istifadəyə verilmişdir. Turizm sektorunda fəaliyyətin səmərəli təşkilinin nəticəsidir ki, 2013-cü ildə muxtar respublikaya ölkəmizin digər bölgələrindən və xaricdən, ümumilikdə, 370 mindən çox turist gəlmişdir.

Naxçıvan Muxtar Respublikasının **kütləvi informasiya vasitələri**nin maddi-texniki bazasının gücləndirilməsi, əməkdaşların fəaliyyətinin səmərəli təşkili istiqamətində həyata keçirilən tədbirlər 2013-cü ildə də davam etdirilmişdir. Naxçıvan Dövlət Televiziyası və Radiosunun texniki imkanları daha da artırılmış, yeni efir və çəkiliş avadanlıqları alınmış, virtual studiya yaradılmışdır. Bununla yanaşı, hazırlanan verilişlərin keyfiyyətini artırmaq məqsədilə dövlət teleradiosunda, eləcə də "Kanal-35" televiziyasında və "Naxçıvanın səsi" radiosunda bədii şuralar fəaliyyətə başlamışdır. "Şərq qapısı", şəhər və rayon qəzetlərinin də maddi-texniki bazaları yaxşılaşdırılmış, qəzet redaksiyalarına kompüter dəstləri, fotoaparatlar və səsyazma avadanlıqları verilmişdir.

2013-cü ildə həyata keçirilən tədbirlər insanların rifah halını yaxşılaşdırmaqla bərabər, sabitliyin və əmin-amanlığın qorunmasına da öz təsirini göstərmişdir. Sabitlik o yerdə davamlı olur ki, iqtisadi inkişafla yanaşı, ordu quruculuğu da davamlı xarakter alsın. Bu prinsip əsas götürülərək **ordu quruculuğu** muxtar respublikamızda daim diqqət mərkəzində saxlanılmış, ordunun döyüş qabiliyyəti daha da yüksəldilmiş, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılmış, maddi-texniki baza möhkəmləndirilmiş, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülmüşdür. 2013-cü ildə Naxçıvan şəhərində Daxili Qoşunların Naxçıvan Alayının zabitləri üçün iki yaşayış binasının, Şahbuz şəhərindəki hərbi hissədə yeni texniki parkın və sursat anbarının tikintisi, Kəngərli rayonundakı hərbi hissədə əsgər yataqxanasının yenidən qurulması başa çatdırılmışdır. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsi üçün inzibati bina yenidən qurulараq istifadəyə verilmişdir.

Ölkəmizin müharibə vəziyyətində olması ordunun ixtisaslı zabitlərlə təmin olunmasına diqqətin artırılmasını zəruri edir. Vətənpərvərlik tərbiyəsinin artırılmasının nəticəsidir ki, bu gün gənclər arasında hərbi təhsilə olan maraq getdikcə artır. 2013-cü ildə Heydər Əliyev adına Hərbi Liseyi bitirmiş kursantlardan 177-si ali hərbi məktəblərə qəbul olmuşdur. Bu gün ümumtəhsil məktəblərimizin məzunları arasında da ali hərbi və xüsusi təyinatlı məktəblərdə təhsilə maraq güclüdür. Təkcə builki orta məktəb məzunlarından 38 nəfəri ali hərbi və xüsusi təyinatlı ali məktəblərə qəbul olunmuşdur.

**Hüquq-mühafizə** orqanlarının iş şəraitinin yaxşılaşdırılması və bu sahədə infrastrukturun yenilənməsi məqsədi ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında avtomobil parkının və təlim mərkəzinin, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Şərur və Babək Rayon şöbələrinin inzibati binalarının və texnika parklarının tikintisi aparılmışdır.

Davamlı iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olması ilə nəticələnmişdir. Bu işdə düzgün təşkil olunmuş hüquq maarifi və profilaktik tədbirlər də öz təsirini göstərmişdir.

Məşğulluğun təmin olunması, yeni iş yerlərinin açılması, əhali rifahının yaxşılaşdırılması və ailələrin iqtisadi müstəqilliyinin təmin edilməsi demoqrafik vəziyyətə də müsbət təsir göstərmiş, 2013-cü ildə muxtar respublika əhalisinin sayı artaraq 435 min nəfərdən çox olmuşdur.

Bir sözlə, "Heydər Əliyev ili" muxtar respublikanın tarixinə bütün sahələrdə qazanılan nailiyyətlər ili kimi daxil olmuş, iqtisadi inkişafın dinamik artımı təmin edilmişdir. Bu inkişafa töhfəsini verənlərin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 53 nəfər Azərbaycan Respublikasının müxtəlif orden, medal və fəxri adları ilə təltif edilmiş, 1 nəfərə ali hərbi və 1 nəfərə ali xüsusi rütbə verilmiş, 9 nəfər Prezident mükafatına layiq görülmüşdür. Həmçinin 21 nəfər Naxçıvan Muxtar Respublikasının fəxri adları, 4 nəfər "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə", 33 nəfər "Rəşadətli əməyə görə" nişanları ilə təltif olunmuşdur.

Bu nailiyyətlərin qazanılmasında, Naxçıvan Muxtar Respublikasının inkişafında əməyi olanların hamısına təşəkkürümüzü bildiririk.

Hörmətli sessiya iştirakçıları!

Qarşıda bizi daha mühüm vəzifələr gözləyir. Biz ümummilli liderimizin yolu ilə gedərək doğma diyarımızı onun görmək istədiyi kimi qurmağa, yaşatmağa və inkişaf etdirməyə borcluyuq. Bunu isə yalnız bütün sahələrdə ən yüksək nəticələrə nail olmaqla təmin etmək mümkündür. Ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: ***"Növbəti illərdə biz bütün istiqamətlər – iqtisadi islahatlar, sosial siyasət, enerji siyasəti üzrə ancaq və ancaq irəli gedəcəyik. Biz daha da güclü Azərbaycan, daha da güclü dövlət quracağıq ki, bu dövlətdə hər bir vətəndaş özünü rahat hiss etsin, sülh, əmin-amanlıq şəraitində yaşasın".***

Bu yolda hamınıza uğurlar arzulayıram.

Sağ olun!

## Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında

## Naxçıvan Muxtar Respublikasının

# QANUNU

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin gəlirləri 66 800 000,0 manat, xərcləri 350 500 000,0 manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 283 700 000,0 manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 47 710 000,0 manat, yerli gəlirləri 19 090 000,0 manat və mərkəzləşdirilmiş xərcləri 263 425 905,0 manat, yerli xərcləri 87 074 095,0 manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 14 000 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 1 500 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 150 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 350 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 40 520 000,0 |
| 2.5.1. | Naxçıvan Muxtar Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 2 650 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 1 500 000,0 |
| 2.7. | Aksiz | 1 580 000,0 |
| 2.7.1. | Naxçıvan Muxtar Respublikasının ərazisinə malların idxalına görə aksiz | 1 460 000,0 |
| 2.8. | Yol vergisi | 670 000,0 |
| 2.8.1. | Xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 220 000,0 |
| 2.9. | Mədən vergisi | 60 000,0 |
| 2.10. | Gömrük rüsumları | 1 600 000,0 |
| 2.11. | Dövlət rüsumu | 2 870 000,0 |
| 2.12. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 1 800 000,0 |
| 2.13. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 200 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| | | |
|---|---|---|
| 3.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 2 000 000,0 |
| 3.1.1. | Yol vergisi | 670 000,0 |
| 3.1.2. | Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yükdaşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 80 000,0 |
| 3.1.3. | İdxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 660 000,0 |
| 3.1.4. | İdxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 450 000,0 |
| 3.1.5. | Naxçıvan Muxtar Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu | 70 000,0 |
| 3.1.6. | Nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların illik texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 70 000,0 |

**Maddə 4.** Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinə vergi daxilolmaları müəyyən olunmuş vergi dərəcələrinə uyğun olaraq hesablanır.

**Maddə 5.** Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 5.1. | Ümumi dövlət xidmətləri | 28 932 571,0 |
| 5.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanılması xərcləri | 24 141 967,0 |
| 5.1.2. | elm xərcləri | 4 690 604,0 |
| 5.1.3. | başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri | 100 000,0 |
| 5.2. | Müdafiə | 9 794 252,0 |
| 5.2.1. | müdafiə qüvvələri | 3 687 020,0 |
| 5.2.2. | milli təhlükəsizlik | 6 107 232,0 |
| 5.3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 51 815 069,0 |
| 5.3.1. | məhkəmə hakimiyyəti | 3 050 044,0 |
| 5.3.2. | hüquq-mühafizə | 44 819 081,0 |
| 5.3.3. | prokurorluq | 3 945 944,0 |
| 5.4. | Təhsil | 83 313 849,0 |
| 5.4.1. | məktəbəqədər və ibtidai təhsil | 4 924 871,0 |
| 5.4.2. | natamam və orta təhsil | 53 308 010,0 |
| 5.4.3. | internat və xüsusi məktəblər | 684 759,0 |
| 5.4.4. | texniki-peşə məktəbləri və liseylər | 2 913 521,0 |
| 5.4.5. | təhsil sahəsində digər xidmətlər | 21 482 688,0 |
| 5.5. | Səhiyyə | 36 065 303,0 |
| 5.5.1. | poliklinikalar və ambulatoriyalar | 4 964 988,0 |
| 5.5.2. | xəstəxanalar | 22 306 588,0 |
| 5.5.3. | səhiyyə sahəsində digər xidmətlər | 786 448,0 |
| 5.5.4. | səhiyyə sahəsinə aid edilən digər xidmətlər | 8 007 279,0 |
| 5.6. | Sosial müdafiə və sosial təminat | 15 191 276,0 |
| 5.6.1. | sosial müdafiə xərcləri | 14 115 861,0 |
| 5.6.2. | sosial təminat xərcləri | 1 075 415,0 |
| 5.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 13 813 749,0 |
| 5.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 10 416 687,0 |
| 5.7.2. | radio, televiziya və nəşriyyat | 2 514 630,0 |
| 5.7.3. | bədən tərbiyəsi, gənclər siyasəti | 281 228,0 |
| 5.7.4. | digər kateqoriyalara aid edilməyən fəaliyyət | 601 204,0 |
| 5.8. | Mənzil və kommunal təsərrüfatı | 18 734 586,0 |
| 5.8.1. | mənzil təsərrüfatı | 1 214 406,0 |
| 5.8.2. | kommunal təsərrüfatı | 17 403 788,0 |
| 5.8.3. | su təsərrüfatı | 116 392,0 |
| 5.9. | Baytarlıq, meliorasiya, meşə təsərrüfatı, balıqçılıq, ətraf mühitin mühafizəsi və digər tədbirlər | 25 444 067,0 |
| 5.9.1. | baytarlıq, meliorasiya və digər tədbirlər | 23 771 032,0 |
| 5.9.2. | meşə təsərrüfatı | 523 654,0 |
| 5.9.3. | balıqçılıq | 16 939,0 |
| 5.9.4. | ətraf mühitin mühafizəsi | 393 916,0 |
| 5.9.5. | hidrometeorologiya tədbirləri | 738 526,0 |
| 5.10. | Tikinti | 35 000 000,0 |
| 5.10.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 35 000 000,0 |
| 5.11. | Nəqliyyat və rabitə | 9 339 570,0 |
| 5.11.1. | nəqliyyat | 9 314 570,0 |
| 5.11.2. | rabitə | 25 000,0 |
| 5.12. | İqtisadi fəaliyyət | 7 505 000,0 |
| 5.12.1. | iqtisadi və kommersiya fəaliyyəti | 7 505 000,0 |
| 5.12.1.1. | sahibkarlığa dəstək | 7 005 000,0 |
| 5.12.1.2. | ipotekaya dəstək | 500 000,0 |
| 5.13. | Əsas bölmələrə aid edilməyən xidmətlər | 15 550 708,0 |
| 5.13.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 2 000 000,0 |
| 5.13.2. | Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 10 000 000,0 |
| 5.13.3. | Bakı-Naxçıvan-Bakı marşrutu ilə neft və neft məhsulları, təhlükəli yüklərin daşınmasında dörd və daha çox oxu olan yük avtomobillərinin sürücülərinə ödənilən kompensasiya | 2 000 000,0 |
| 5.13.4. | əsas bölmələrə aid edilməyən sair xərclər | 1 550 708,0 |

**Maddə 6.** Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 7.** Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlirlər 19 170 000,0 manat, o cümlədən şəhər və rayonların yerli gəlirlərinə aid olan məbləğ 19 090 000,0 manat, "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ 80 000,0 manat, yerli xərcləri 87 074 095,0 manat olmaqla, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 67 984 095,0 manat təsdiq edilsin.

**(manatla)**

| | Şəhər və rayonların adı | Gəlirlər | | | Xərclər | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən: şəhər və rayonların yerli gəlirlərinə aid olan məbləğ | o cümlədən: "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ | | |
| 1. | Naxçıvan şəhəri | 11 170 000 | 11 140 000 | 30 000 | 11 140 000 | |
| 2. | Şərur rayonu | 2 920 000 | 2 900 000 | 20 000 | 20 251 562 | 17 351 562 |
| 3. | Babək rayonu | 2 374 000 | 2 361 000 | 13 000 | 13 768 899 | 11 407 899 |
| 4. | Ordubad rayonu | 842 000 | 836 000 | 6 000 | 11 830 929 | 10 994 929 |
| 5. | Culfa rayonu | 787 000 | 782 000 | 5 000 | 11 188 260 | 10 406 260 |
| 6. | Şahbuz rayonu | 477 000 | 474 000 | 3 000 | 9 778 917 | 9 304 917 |
| 7. | Kəngərli rayonu | 436 000 | 434 000 | 2 000 | 5 784 593 | 5 350 593 |
| 8. | Sədərək rayonu | 164 000 | 163 000 | 1 000 | 3 330 935 | 3 167 935 |
| **Cəmi:** | | **19 170 000** | **19 090 000** | **80 000** | **87 074 095** | **67 984 095** |

**Maddə 8.** Büdcə daxilolmalarının vəziyyətindən asılı olmayaraq, əməkhaqqı, əməkhaqqına üstəlik, pensiya, başqa sosial müavinətlər və ödənişlər müdafiə olunmuş xərc maddələridir.

**Maddə 9.** Bu Qanun 2014-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2013-cü il*

## "Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

# FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2013-cü il 28 dekabr tarixli 16-IV QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 2-ci maddəsi ilə nəzərdə tutulan gəlirlərin dövlət büdcəsinə daxil olmasını təmin etmək üçün dövlət orqanları üzrə tapşırıqların minimum həddi aşağıdakı kimi müəyyən edilsin:

**(manatla)**

| | | |
|---|---|---|
| 1.1. | Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi üzrə | 59 000 000,0 |
| 1.2. | Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi üzrə | 6 000 000,0 |

2. "Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 5-ci maddəsi ilə nəzərdə tutulan dövlət büdcəsinin xərcləri dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar və onlar tərəfindən həyata keçiriləcək tədbirlər üzrə aşağıdakı kimi bölüşdürülsün:

**(manatla)**

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: Mərkəzləşdirilmiş xərclər | o cümlədən: Yerli xərclər |
|---|---|---|---|---|
| **2.1.** | **Ümumi dövlət xidmətləri xərcləri** | **28 932 571,0** | **21 134 841,0** | **7 797 730,0** |
| **2.1.1.** | **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin saxlanılması xərcləri** | **2 842 397,0** | **2 842 397,0** | |
| **2.1.2.** | **Naxçıvan Muxtar Respublikası icra hakimiyyəti orqanlarının saxlanılması xərcləri** | **20 007 062,0** | **12 279 055,0** | **7 728 007,0** |
| 2.1.2.1. | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 1 318 204,0 | 1 318 204,0 | |
| 2.1.2.2. | Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyi | 730 929,0 | 730 929,0 | |
| 2.1.2.3. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 1 415 823,0 | 1 415 823,0 | |
| 2.1.2.4. | Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi | 1 176 170,0 | 1 176 170,0 | |
| 2.1.2.5. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 309 557,0 | 309 557,0 | |
| 2.1.2.6. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 256 007,0 | 256 007,0 | |
| 2.1.2.7. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 231 265,0 | 231 265,0 | |
| 2.1.2.8. | Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 316 718,0 | 316 718,0 | |
| 2.1.2.9. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 291 045,0 | 291 045,0 | |
| 2.1.2.10. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 222 157,0 | 222 157,0 | |

*Ardı 6-cı səhifədə*

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
|---|---|---|---|---|
| 2.1.2.11. | Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 403 537,0 | 403 537,0 | |
| 2.1.2.12. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 443 884,0 | 443 884,0 | |
| 2.1.2.13. | Naxçıvan Muxtar Respublikasının Nəqliyyat Nazirliyi | 383 979,0 | 383 979,0 | |
| 2.1.2.14. | Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi | 702 452,0 | 702 452,0 | |
| 2.1.2.15. | Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 302 038,0 | 302 038,0 | |
| 2.1.2.16. | Naxçıvan Muxtar Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 504 491,0 | 504 491,0 | |
| 2.1.2.17. | Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 223 396,0 | 223 396,0 | |
| 2.1.2.18. | Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 713 568,0 | 713 568,0 | |
| 2.1.2.19. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 167 468,0 | 167 468,0 | |
| 2.1.2.20. | Naxçıvan Muxtar Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyi | 96 969,0 | 96 969,0 | |
| 2.1.2.21. | Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi | 307 251,0 | 307 251,0 | |
| 2.1.2.22. | Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi | 139 050,0 | 139 050,0 | |
| 2.1.2.23. | Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsi | 85 957,0 | 85 957,0 | |
| 2.1.2.24. | Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti | 227 346,0 | 227 346,0 | |
| 2.1.2.25. | Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti | 205 398,0 | 205 398,0 | |
| 2.1.2.26. | Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi | 71 944,0 | 71 944,0 | |
| 2.1.2.27. | Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyi | 262 491,0 | 262 491,0 | |
| 2.1.2.28. | Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi | 97 685,0 | 97 685,0 | |
| 2.1.2.29. | Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondu | 92 240,0 | 92 240,0 | |
| 2.1.2.30. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 196 709,0 | 196 709,0 | |
| 2.1.2.31. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti | 290 260,0 | 290 260,0 | |
| 2.1.2.32. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti | 93 067,0 | 93 067,0 | |
| 2.1.2.33. | Yerli icra hakimiyyəti orqanlarının saxlanılması xərcləri | 7 728 007,0 | | 7 728 007,0 |
| **2.1.3.** | **Naxçıvan Muxtar Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması xərcləri** | **923 958,0** | **923 958,0** | |
| 2.1.3.1. | Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) | 347 135,0 | 347 135,0 | |
| 2.1.3.2. | Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi | 264 741,0 | 264 741,0 | |
| 2.1.3.3. | Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası | 192 572,0 | 192 572,0 | |
| 2.1.3.4. | Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası | 119 510,0 | 119 510,0 | |
| **2.1.4.** | **Qanunvericilik, idarəetmə və digər dövlət orqanları üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri** | **368 550,0** | **368 550,0** | |
| **2.1.5.** | **Elm xərcləri** | **4 690 604,0** | **4 620 881,0** | **69 723,0** |
| 2.1.5.1. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 339 362,0 | 339 362,0 | |
| 2.1.5.2. | Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyi | 17 937,0 | 17 937,0 | |
| 2.1.5.3. | Elmi-Tədqiqat Baytarlıq Mərkəzi | 86 923,0 | 86 923,0 | |
| 2.1.5.4. | Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyi | 211 708,0 | 211 708,0 | |
| 2.1.5.5. | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi | 3 530 208,0 | 3 530 208,0 | |
| 2.1.5.6. | Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi | 491 570,0 | 421 847,0 | 69 723,0 |
| 2.1.5.7. | Elm sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 12 896,0 | 12 896,0 | |
| **2.1.6.** | **Başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri** | **100 000,0** | **100 000,0** | |
| 2.1.6.1. | Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi | 100 000,0 | 100 000,0 | |
| **2.2.** | **Müdafiə xərcləri** | **9 794 252,0** | **9 794 252,0** | |
| **2.2.1.** | **Müdafiə qüvvələri** | **3 687 020,0** | **3 687 020,0** | |
| 2.2.1.1. | Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 3 687 020,0 | 3 687 020,0 | |
| **2.2.2.** | **Milli təhlükəsizlik xərcləri** | **6 107 232,0** | **6 107 232,0** | |
| 2.2.2.1. | Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyi | 6 107 232,0 | 6 107 232,0 | |
| **2.3.** | **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması xərcləri** | **51 815 069,0** | **51 815 069,0** | |
| **2.3.1.** | **Məhkəmə hakimiyyəti orqanlarının saxlanılması xərcləri** | **3 050 044,0** | **3 050 044,0** | |
| 2.3.1.1. | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 1 407 064,0 | 1 407 064,0 | |
| 2.3.1.2. | Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 338 732,0 | 338 732,0 | |
| 2.3.1.3. | Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi | 205 812,0 | 205 812,0 | |
| 2.3.1.4. | Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 296 046,0 | 296 046,0 | |
| 2.3.1.5. | Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məhkəmələri | 802 390,0 | 802 390,0 | |
| **2.3.2.** | **Hüquq-mühafizə orqanlarının saxlanılması xərcləri** | **44 819 081,0** | **44 819 081,0** | |
| 2.3.2.1. | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi | 23 924 417,0 | 23 924 417,0 | |
| 2.3.2.2. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 1 543 200,0 | 1 543 200,0 | |
| 2.3.2.3. | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi | 9 268 550,0 | 9 268 550,0 | |
| 2.3.2.4. | Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi | 3 243 900,0 | 3 243 900,0 | |
| 2.3.2.5. | Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti | 1 643 630,0 | 1 643 630,0 | |
| 2.3.2.6. | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 5 195 384,0 | 5 195 384,0 | |
| **2.3.3.** | **Prokurorluq orqanlarının saxlanılması xərcləri** | **3 945 944,0** | **3 945 944,0** | |
| 2.3.3.1. | Naxçıvan Muxtar Respublikasının Prokurorluğu | 2 948 784,0 | 2 948 784,0 | |
| 2.3.3.2. | Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu | 997 160,0 | 997 160,0 | |
| **2.4.** | **Təhsil xərcləri** | **83 313 849,0** | **19 266 164,0** | **64 047 685,0** |
| **2.4.1.** | **Məktəbəqədər və ibtidai təhsil xərcləri** | **4 924 871,0** | **75 182,0** | **4 849 689,0** |
| 2.4.1.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 135 884,0 | 75 182,0 | 60 702,0 |
| 2.4.1.2. | Yerli icra hakimiyyəti orqanları | 4 788 987,0 | | 4 788 987,0 |
| **2.4.2.** | **Natamam və orta təhsil** | **53 308 010,0** | **8 433 122,0** | **44 874 888,0** |
| 2.4.2.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 53 308 010,0 | 8 433 122,0 | 44 874 888,0 |
| **2.4.3.** | **İnternat və xüsusi məktəblər** | **684 759,0** | | **684 759,0** |
| 2.4.3.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 684 759,0 | | 684 759,0 |
| **2.4.4.** | **Texniki-peşə məktəbləri və liseylər** | **2 913 521,0** | **2 348 535,0** | **564 986,0** |
| 2.4.4.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 929 938,0 | 364 952,0 | 564 986,0 |
| 2.4.4.2. | Naxçıvan Tibb Kolleci | 496 051,0 | 496 051,0 | |
| 2.4.4.3. | Naxçıvan Musiqi Kolleci | 1 180 116,0 | 1 180 116,0 | |
| 2.4.4.4. | Naxçıvan Dövlət Texniki Kolleci | 307 416,0 | 307 416,0 | |
| **2.4.5.** | **Təhsil sahəsində digər xidmətlər** | **20 292 988,0** | **7 219 625,0** | **13 073 363,0** |
| 2.4.5.1. | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 11 481 593,0 | 7 170 025,0 | 4 311 568,0 |
| 2.4.5.2. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 8 761 795,0 | | 8 761 795,0 |
| 2.4.5.3. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti | 49 600,0 | 49 600,0 | |
| **2.4.6.** | **Təhsil sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri** | **1 189 700,0** | **1 189 700,0** | |
| **2.5.** | **Səhiyyə xərcləri** | **36 065 303,0** | **26 918 006,0** | **9 147 297,0** |
| **2.5.1.** | **Poliklinikalar və ambulatoriyalar** | **4 964 988,0** | **2 777 454,0** | **2 187 534,0** |
| 2.5.1.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 4 964 988,0 | 2 777 454,0 | 2 187 534,0 |
| **2.5.2.** | **Xəstəxanalar** | **22 306 588,0** | **16 052 745,0** | **6 253 843,0** |
| 2.5.2.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 22 306 588,0 | 16 052 745,0 | 6 253 843,0 |
| **2.5.3.** | **Səhiyyə sahəsində digər xidmətlər** | **786 448,0** | **178 274,0** | **608 174,0** |
| 2.5.3.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 786 448,0 | 178 274,0 | 608 174,0 |
| **2.5.4.** | **Səhiyyə sahəsinə aid edilən digər xidmətlər** | **7 935 379,0** | **7 837 633,0** | **97 746,0** |
| 2.5.4.1. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 7 935 379,0 | 7 837 633,0 | 97 746,0 |
| **2.5.5.** | **Səhiyyə sahəsi üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri** | **71 900,0** | **71 900,0** | |
| **2.6.** | **Sosial müdafiə və sosial təminat xərcləri** | **15 191 276,0** | **14 935 465,0** | **255 811,0** |
| **2.6.1.** | **Sosial müdafiə xərcləri** | **14 115 861,0** | **14 115 861,0** | |
| 2.6.1.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti | 14 115 861,0 | 14 115 861,0 | |
| **2.6.2.** | **Sosial təminat xərcləri** | **1 075 415,0** | **819 604,0** | **255 811,0** |
| 2.6.2.1. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 924 861,0 | 669 050,0 | 255 811,0 |
| 2.6.2.2. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti | 140 840,0 | 140 840,0 | |
| 2.6.2.3. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidməti | 9 714,0 | 9 714,0 | |
| **2.7.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət** | **13 813 749,0** | **9 369 201,0** | **4 444 548,0** |
| **2.7.1.** | **Mədəniyyət və incəsənət sahəsində fəaliyyət** | **10 416 687,0** | **6 214 232,0** | **4 202 455,0** |
| 2.7.1.1. | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi | 102 198,0 | 102 198,0 | |
| 2.7.1.2. | Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi | 19 020,0 | 19 020,0 | |
| 2.7.1.3. | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 10 182 436,0 | 5 979 981,0 | 4 202 455,0 |
| 2.7.1.4. | Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 16 328,0 | 16 328,0 | |
| 2.7.1.5. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 96 705,0 | 96 705,0 | |
| **2.7.2.** | **Radio, televiziya və nəşriyyat** | **2 514 630,0** | **2 313 494,0** | **201 136,0** |
| 2.7.2.1. | Naxçıvan Muxtar Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Komitəsi | 2 153 478,0 | 2 153 478,0 | |
| 2.7.2.2. | Dövri mətbuat və nəşriyyat | 361 152,0 | 160 016,0 | 201 136,0 |
| **2.7.3.** | **Bədən tərbiyəsi və gənclər siyasəti xərcləri** | **281 228,0** | **240 271,0** | **40 957,0** |
| 2.7.3.1. | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 281 228,0 | 240 271,0 | 40 957,0 |
| 2.7.3.1.1. | bədən tərbiyəsi və idmanın təşkili | 220 271,0 | 179 314,0 | 40 957,0 |
| 2.7.3.1.2. | gənclər siyasəti | 60 957,0 | 60 957,0 | |
| **2.7.4.** | **Digər kateqoriyalara aid edilməyən fəaliyyət** | **589 920,0** | **589 920,0** | |
| 2.7.4.1. | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 280 896,0 | 280 896,0 | |
| 2.7.4.2. | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu | 60 430,0 | 60 430,0 | |
| 2.7.4.3. | Dövlət büdcəsindən verilən maliyyə yardımları | 248 594,0 | 248 594,0 | |
| 2.7.4.3.1. | Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası | 78 096,0 | 78 096,0 | |
| 2.7.4.3.2. | Yazıçılar Birliyinə dövlət büdcəsindən verilən maliyyə yardımı | 36 416,0 | 36 416,0 | |
| 2.7.4.3.3. | Bəstəkarlar Təşkilatına dövlət büdcəsindən verilən maliyyə yardımı | 18 760,0 | 18 760,0 | |

*Ardı 7-ci səhifədə*

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| 2.7.4.3.4. | Rəssamlar Birliyinə dövlət büdcəsindən verilən maliyyə yardımı | 20 168,0 | 20 168,0 | |
| 2.7.4.3.5. | Naxçıvan Muxtar Respublikasının Qızıl Aypara Komitəsinə dövlət büdcəsindən verilən maliyyə yardımı | 95 154,0 | 95 154,0 | |
| **2.7.5.** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri** | **11 284,0** | **11 284,0** | |
| **2.8.** | **Mənzil və kommunal təsərrüfatı xərcləri** | **18 734 586,0** | **18 734 586,0** | |
| **2.8.1.** | **Mənzil təsərrüfatı xərcləri** | **1 214 406,0** | **1 214 406,0** | |
| **2.8.2.** | **Kommunal təsərrüfatı xərcləri** | **17 403 788,0** | **17 403 788,0** | |
| 2.8.2.1. | Abadlaşdırma, tullantıların yığılması və təmizlənməsi | 8 516 646,0 | 8 516 646,0 | |
| 2.8.2.2. | İstilik | 7 988 475,0 | 7 988 475,0 | |
| 2.8.2.3. | Küçələrin işıqlandırılması | 898 667,0 | 898 667,0 | |
| **2.8.3.** | **Su təsərrüfatı xərcləri** | **116 392,0** | **116 392,0** | |
| **2.9.** | **Baytarlıq, meliorasiya, meşə təsərrüfatı, balıqçılıq, ətraf mühitin mühafizəsi və digər tədbirlər** | **25 444 067,0** | **24 136 418,0** | **1 307 649,0** |
| **2.9.1.** | **Baytarlıq, meliorasiya və digər tədbirlər** | **23 771 032,0** | **22 463 383,0** | **1 307 649,0** |
| 2.9.1.1. | Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi | 4 354 350,0 | 4 354 350,0 | |
| 2.9.1.2. | Naxçıvan Muxtar Respublikasının Bitki Mühafizə Stansiyası | 130 892,0 | 130 892,0 | |
| 2.9.1.3. | Naxçıvan Muxtar Respublikasının Dövlət Toxum Müfəttişliyi | 81 336,0 | 81 336,0 | |
| 2.9.1.4. | Naxçıvan Muxtar Respublikasının Layihə-Axtarış Kimyalaşdırma Stansiyası | 108 350,0 | 108 350,0 | |
| 2.9.1.5. | Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti | 1 488 286,0 | 180 637,0 | 1 307 649,0 |
| 2.9.1.6. | Epizootiya tədbirləri | 316 500,0 | 316 500,0 | |
| 2.9.1.7. | Naxçıvan Muxtar Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 561 200,0 | 561 200,0 | |
| 2.9.1.8. | Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi | 16 580 118,0 | 16 580 118,0 | |
| 2.9.1.9. | Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 150 000,0 | 150 000,0 | |
| **2.9.2.** | **Meşə təsərrüfatı xərcləri** | **523 654,0** | **523 654,0** | |
| 2.9.2.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 523 654,0 | 523 654,0 | |
| **2.9.3.** | **Balıqçılıq təsərrüfatı xərcləri** | **16 939,0** | **16 939,0** | |
| 2.9.3.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 16 939,0 | 16 939,0 | |
| **2.9.4.** | **Ətraf mühitin mühafizəsi** | **393 916,0** | **393 916,0** | |
| 2.9.4.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 393 916,0 | 393 916,0 | |
| **2.9.5.** | **Hidrometeorologiya** | **592 856,0** | **592 856,0** | |
| 2.9.5.1. | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 592 856,0 | 592 856,0 | |
| **2.9.6.** | **Baytarlıq, meliorasiya, meşə təsərrüfatı, balıqçılıq, ətraf mühitin mühafizəsi və digər tədbirlər üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri** | **145 670,0** | **145 670,0** | |
| **2.10.** | **Tikinti xərcləri** | **35 000 000,0** | **35 000 000,0** | |
| 2.10.1. | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 35 000 000,0 | 35 000 000,0 | |
| **2.11.** | **Nəqliyyat və rabitə xərcləri** | **9 339 570,0** | **9 339 570,0** | |
| **2.11.1.** | **Nəqliyyat xərcləri** | **9 314 570,0** | **9 314 570,0** | |
| 2.11.1.1. | Naxçıvan Muxtar Respublikasının Nəqliyyat Nazirliyi | 9 314 570,0 | 9 314 570,0 | |
| 2.11.1.1.1. | Avtomobil yollarının abadlaşdırılması xərcləri | 9 314 570,0 | 9 314 570,0 | |
| **2.11.2.** | **Rabitə xərcləri** | **25 000,0** | **25 000,0** | |
| 2.11.2.1. | Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi (əsgər məktubları və əsgər bağlamalarına görə poçt sahəsində yaranan zərəri ödəmək üçün) | 25 000,0 | 25 000,0 | |
| **2.12.** | **İqtisadi fəaliyyətlə bağlı xərclər** | **7 505 000,0** | **7 505 000,0** | |
| **2.12.1.** | **İqtisadi və kommersiya fəaliyyəti** | **7 505 000,0** | **7 505 000,0** | |
| 2.12.1.1. | Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyi (sahibkarlığın inkişafı ilə bağlı Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fonduna nəzərdə tutulan xərclər) | 5 005 000,0 | 5 005 000,0 | |
| 2.12.1.2. | "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması | 2 000 000,0 | 2 000 000,0 | |
| 2.12.1.3. | Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi (Azərbaycan İpoteka Fondunun Naxçıvan filialının nizamnamə kapitalının artırılması) | 500 000,0 | 500 000,0 | |
| **2.13.** | **Əsas bölmələrə aid edilməyən xidmətlər** | **15 550 708,0** | **15 477 333,0** | **73 375,0** |
| **2.13.1.** | **Naxçıvan Muxtar Respublikası Ehtiyat Fondunun xərcləri** | **10 000 000,0** | **10 000 000,0** | |
| **2.13.2.** | **"Avtomobil Yolları" Məqsədli Büdcə Fondu** | **2 000 000,0** | **2 000 000,0** | |
| **2.13.3.** | **Bakı-Naxçıvan-Bakı marşrutu ilə neft və neft məhsulları, təhlükəli yüklərin daşınmasında dörd və daha çox oxu olan yük avtomobillərinin sürücülərinə ödənilən kompensasiya** | **2 000 000,0** | **2 000 000,0** | |
| **2.13.4.** | **Əsas bölmələrə aid edilməyən sair xərclər** | **1 550 708,0** | **1 477 333,0** | **73 375,0** |
| 2.13.4.1. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi | 153 361,0 | 153 361,0 | |
| 2.13.4.1.1. | məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və digər xidmətlər üzrə xərclər | 153 361,0 | 153 361,0 | |
| 2.13.4.2. | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər) | 1 000 000,0 | 1 000 000,0 | |
| 2.13.4.3. | Səfərbərlik ehtiyatları anbarı və digər tədbirlər üzrə xərclər | 397 347,0 | 323 972,0 | 73 375,0 |

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. "Naxçıvan Muxtar Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu ilə dövlət büdcəsinin gəlirləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsinə nəzarət etsin;

3.2. bu Fərmanın 2.10.1-ci yarımbəndində (Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)) nəzərdə tutulan vəsaitin obyektlər və istiqamətlər üzrə bölgüsünü həyata keçirsin və bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə məlumat versin.

4. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2014-cü ilin dövlət büdcəsində nəzərdə tutulan Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə daxil olan vergi və ödənişlərin aylıq və rüblük bölgüsünü həmin orqanlarla razılaşdırıb təsdiq etsin;

4.2. bu Fərmanın 2.1.4-cü, 2.1.5.7-ci, 2.4.6-cı, 2.5.5-ci, 2.7.5-ci və 2.9.6-cı yarımbəndlərində nəzərdə tutulan vəsaitin (dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) aidiyyəti təşkilatlar üzrə bölgüsünü həyata keçirsin.

5. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi muxtar respublikanın şəhər və rayonları üzrə müəyyən olunmuş vergi daxilolmalarının aylıq proqnozunun icrasının təmin edilməsi üçün tədbirlər görsün və görülmüş işlər barədə rübdə bir dəfə aidiyyəti üzrə məlumat təqdim etsin.

6. Bu Fərman 2014-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2013-cü il*

## Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsi haqqında Naxçıvan Muxtar Respublikasının QANUNU

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsinin gəlirləri 48 689 000,0 manat, xərcləri 120 840 000,0 manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 72 151 000,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Məcburi dövlət sosial sığorta haqları, cəmi | 48 639 000,0 |
| | o cümlədən: | |
| 1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 29 207 000,0 |
| 1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 3 982 000,0 |
| 1.3. | büdcə təşkilatlarının büdcədənkənar vəsaitləri üzrə | 500 000,0 |
| 1.4. | digər sığortaedənlər | 14 950 000,0 |
| | o cümlədən: | |
| | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 1 800 000,0 |
| 2. | Sair gəlirlər, cəmi | 50 000,0 |
| | o cümlədən: | |
| | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | 50 000,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1. | Əhaliyə ödənişlər, cəmi | 118 555 000,0 |
| | o cümlədən: | |
| 1.1. | əmək pensiyalarının ödənilməsinə, cəmi | 115 800 000,0 |
| | ondan: | |
| | əmək pensiyalarının baza hissəsinə | 64 800 000,0 |
| | əmək pensiyalarının sığorta hissəsinə | 51 000 000,0 |
| 1.2. | məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərə, cəmi | 2 755 000, 0 |
| | ondan: | |
| | əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə | 160 000, 0 |
| | hamiləliyə və doğuşa görə | 945 000, 0 |
| | uşağın anadan olmasına görə | 600 000,0 |
| | 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar | 450 000, 0 |
| | dəfn üçün | 550 000, 0 |
| | işsizliyə görə | 50 000, 0 |
| 2. | Pensiya və müavinətlərin əhaliyə çatdırılması, bank əməliyyatlarının aparılması üzrə xidmətHaqqı xərcləri | 750 000, 0 |
| 3. | Dövlət Sosial Müdafiə Fondunun aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri | 1 535 000, 0 |

**Maddə 4. Qalıq vəsaitlərdən istifadə**

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun aparatının və yerli orqanlarının hesablarında ilin sonuna qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

**Maddə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2014-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2013-cü il*

## "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının 2013-cü il 28 dekabr tarixli 17-IV QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2014-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanunundan irəli gələn məsələləri həll etsin.

2. Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu:

2.1. Fondun 2014-cü il büdcəsinin gəlirlərinin və xərclərinin yerinə yetirilməsi üçün tədbirlər görsün və aidiyyəti üzrə məlumat versin;

2.2. dövlət təşkilatlarının, o cümlədən büdcədən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarının vaxtında və tam ödənməsini təmin etmək üçün tədbirlər həyata keçirsin.

3. Bu Fərman 2014-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2013-cü il*

# Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2013-cü ildə fəaliyyəti haqqında illik

## M Ə R U Z Ə

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) muxtar respublikada insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, həmçinin bu hüquqların davamlı inkişafına yönəlmiş tədbirləri 2013-cü ildə də davam etdirmişdir.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının fəaliyyətinin yüksək səviyyədə təmin edilməsi, iş şəraitinin daha da yaxşılaşdırılması məqsədilə inzibati binada təmir və yenidənqurma işləri aparılmış, yaradılan yeni iş otaqları müasir avadanlıqlarla təchiz edilmişdir.

Həyata keçirilən tədbirlər Müvəkkil təsisatının fəaliyyətinin, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi işinin daha səmərəli təşkilinə xidmət etmişdir.

Müvəkkilin 2013-cü il üçün məruzəsi daxil olan müraciətlərə baxılmasının nəticələri, Preventiv mexanizm funksiyasının icrası, əhalinin müxtəlif sosial qrupları arasında hüquqi maarifləndirmə işinin təşkili, ictimaiyyətlə əlaqələr, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri ilə əməkdaşlıqla bağlı görülən işlərin ümumiləşdirilmiş təhlili əsasında tərtib edilmişdir.

Məruzənin hazırlanmasında həmçinin dövlət orqanlarından alınmış rəsmi məlumatlardan da istifadə edilmişdir.

2013-cü ildə həyata keçirilmiş tədbirlər aşağıdakı istiqamətləri əhatə etmişdir:

### *1. Daxil olan müraciətlərin araşdırılması*

2013-cü ildə Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 70 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərin 27-ni şikayətlər, 43-nü isə ərizələr təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətlərin Müvəkkilin səlahiyyətlərinə aid olmaması, ərizəçinin hüquqlarının pozulduğu gündən 1 il müddətin keçməsi, şikayətlə bağlı məhkəmə icraatının getməsi, təkrar təqdim edilmiş şikayətdə yeni məlumat, fakt və sübutların olmaması səbəbindən 4 şikayətə baxılmasından imtina edilmişdir.

23 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, onlardan 7-si təmin edilmişdir.

16 şikayətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmişdir.

Daxil olan müraciətlərin araşdırılması ilə əlaqədar muxtar respublikanın dövlət və yerli özünüidarəetmə orqanlarına müvafiq sorğular ünvanlanmış, ərizəçilərə hüquqları izah edilmişdir.

Müraciətlərə qanunla müəyyən edilmiş müddətlərdə baxılmış və daxil olan bütün müraciətlər cavablandırılmışdır.

### *2. Hüquqi maarifləndirmə sahəsində görülmüş tədbirlər*

2013-cü ildə də Müvəkkil insan hüquq və azadlıqlarının müdafiəsi, pozulmuş hüquqların bərpası, o cümlədən insan hüquq və azadlıqlarının təbliği və hüquqi maarifləndirmə sahəsində fəaliyyətini, əsasən, müxtəlif sosial qruplara ünvanlanan, insan hüquqlarının müxtəlif istiqamətlərini əks etdirən müvafiq tədbirlərin həyata keçirilməsi istiqamətində davam etdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin muxtar respublikada icrası cari ildə də davam etdirilmişdir.

Belə ki, 2013-cü ildə də Proqramda nəzərdə tutulmuş tədbirlərin icrası işinin əlaqələndirilməsi, təbliği və tətbiqi vəziyyətinin öyrənilməsi məqsədilə muxtar respublikanın müvafiq dövlət qurumları, məhkəmə, hüquq-mühafizə orqanları, vətəndaş cəmiyyətinin, kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə müvafiq konfranslar keçirilmiş və görülən işlər müzakirə edilmişdir.

2013-cü ildə ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar ulu öndərin insan hüquq və azadlıqlarının təmin edilməsi və onların müdafiə olunması sahəsində əvəzsiz fəaliyyətinin daha da dərindən öyrənilməsi məqsədilə muxtar respublikada “Heydər Əliyev və insan hüquqları” mövzusunda yazı müsabiqəsi keçirilmiş, qaliblər mükafatlandırılmışlar.

2013-cü il oktyabrın 9-da Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri ölkəmizin, həmçinin muxtar respublikamızın ictimai-siyasi həyatında mühüm əhəmiyyət daşımışdır.

Muxtar respublikada seçki ərəfəsində hazırlıq işlərinə, habelə seçki hüququnun təmin edilməsinə xüsusi diqqət yetirilmiş, seçkilərə hazırlıq vəziyyətinin öyrənilməsi və seçicilərin maarifləndirilməsi məqsədilə müvafiq qurumlarla birgə tədbirlər keçirilmişdir.

Qeyd etmək lazımdır ki, seçki günü, həmçinin seçkilərə hazırlıq dövrü də daxil olmaqla, vətəndaşlar, yerli və beynəlxalq müşahidəçilər tərəfindən seçki hüququnun pozulması ilə bağlı təsisata hər hansı müraciət daxil olmamışdır.

İnsan hüquqları sahəsində əlamətdar günlər, 18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günü, 10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü muxtar respublikanın aidiyyəti dövlət qurumlarının iştirakı ilə qeyd edilmiş və müvafiq konfranslar keçirilmişdir.

Ümumilikdə, 2013-cü il ərzində Müvəkkil təsisatı tərəfindən müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə 84 tədbir keçirilmiş, o cümlədən hüquqi maarifləndirici vəsaitlər hazırlanaraq aidiyyəti qurumlara təqdim edilmişdir.

### *3. Hərbi qulluqçuların hüquqlarının müdafiəsi*

Hərbi qulluqçuların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə Müvəkkilin daim diqqət mərkəzində olmuş, bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi 2013-cü ildə də davam etdirilmişdir.

Naxçıvan Qarnizonu ilə birgə hazırlanmış tədbirlər planına müvafiq olaraq, muxtar respublika ərazisindəki birləşmə və hərbi hissələrdə insan hüquqlarının müxtəlif kateqoriyaları üzrə maarifləndirici tədbirlər keçirilmiş, insan hüquqlarına dair hüquqi vəsaitlər təqdim edilmişdir.

Həmçinin aidiyyəti qurumlarla birgə Naxçıvan Qarnizonu və “Naxçıvan” Sərhəd Diviziyasında hərbi qulluqçuların seçki hüququna dair keçirilən seminarlarda hərbi qulluqçulara hərbi xidmət dövründə seçki hüququ və onun təminatları, habelə səsvermə qaydaları barədə geniş məlumat verilmişdir.

Bununla yanaşı, hərbi qulluqçular və onların ailə üzvlərinin Müvəkkilə ünvanlanan müraciətlərinin müvafiq qaydada araşdırılması da davam etdirilmişdir.

### *4. Məhkumların hüquqlarının müdafiəsi*

2013-cü ildə Müvəkkil və aparatın əməkdaşları müntəzəm olaraq Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində olmuş, məhkumların hüquqlarının təmin edilməsi vəziyyətini öyrənmişlər.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan humanist cəza siyasətinə əsaslanan tədbirlərin muxtar respublikada da uğurla və mütəmadi davam etdirilməsi məhkumların hüquqlarının müdafiəsinə xidmət etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar qəbul edilmiş 7 may 2013-cü il tarixli Amnistiya aktı Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyindəki cəzaçəkmə müəssisələrində olan 5 məhkuma da şamil edilmişdir. Belə ki, Amnistiya aktına əsasən, 3 məhkum cəza çəkməkdən azad edilmiş, 2 məhkumun cəza müddəti azaldılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 5 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 4 məhkum barəsində cəzaçəkmə növünün dəyişdirilməsi tətbiq edilmişdir.

Ümumilikdə, 2013-cü il ərzində cəzaçəkmə müəssisələrində cəza çəkən 14 məhkum barəsində belə humanist tədbirlər tətbiq edilmişdir.

Bununla yanaşı, Ədliyyə Nazirliyi ilə birgə hazırlanmış tədbirlər planına əsasən, il ərzində maarifləndirici tədbirlər də mütəmadi davam etdirilmiş, həmçinin aidiyyəti qurumlarla birgə Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumların seçki hüququna dair keçirilən seminarda azadlıqdan məhrum edilmiş şəxslərə cəzaçəkmə dövründə seçki hüququ və onun təminatları, habelə səsvermə qaydaları barədə geniş məlumat verilmişdir.

### *5. Preventiv mexanizm funksiyasının icrası*

2013-cü ildə Müvəkkil Preventiv mexanizm fəaliyyətini, əsasən, müvafiq başçəkmələrin və maarifləndirici tədbirlərin həyata keçirilməsi, həmçinin bu sahədə müvafiq vəsaitlərin hazırlanması istiqamətində davam etdirmişdir.

Ötən il Preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə aid, ümumilikdə, 26 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 79 başçəkmə həyata keçirilmişdir.

Bu və ya digər müəssisəyə başçəkmə zamanı saxlanma şəraiti, işçi heyətinin rəftarı, tibbi xidmətin vəziyyəti, qida rasionu, qidanın keyfiyyəti, habelə məhkumlara tətbiq olunan islahetmə vasitələri, onların asudə vaxtının təşkili kimi məsələlər xüsusi diqqət mərkəzində saxlanılmış, saxlanılan şəxslərlə görüşlər keçirilmiş, onlarla fərdi söhbətlər aparılmış, hüquq və vəzifələri izah edilmişdir.

Qeyd edilməlidir ki, Preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu müəssisələrdə saxlanılan şəxslərin asudə vaxtının təşkil edilməsi, habelə qanunla müəyyən edilmiş digər hüquqlarının təmin edilməsi üçün müasir standartlara uyğun müvafiq şərait yaradılmış, verilən tövsiyələrin icrası üzrə tədbirlər görülmüşdür.

Bununla yanaşı, 2013-cü ildə Preventiv mexanizmin fəaliyyəti ilə əlaqədar azadlıqdan məhrumetmə yerlərində maarifləndirmə işi də həyata keçirilmişdir.

### *6. Beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin təşkili*

Ötən il ərzində də Müvəkkil aparatında beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin inkişaf etdirilməsi və beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri, xarici ölkələrin ölkəmizdəki səfirliklərinin nümayəndələri ilə görüşlər keçirilmişdir.

Müvəkkil aparatında 2013-cü ildə ATƏT-in seçkiləri müşahidə missiyasının uzunmüddətli müşahidəçiləri, o cümlədən Avropa Birliyi ölkələrinin Azərbaycan Respublikasında akkreditasiya olunmuş nümayəndələrindən ibarət heyət ilə görüşlər keçirilmiş, muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlər, habelə seçki hüququnun ardıcıl təmin edilməsi istiqamətində görülən işlər, Müvəkkil təsisatının insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyəti, o cümlədən hüquqi maarifləndirmə tədbirlərinin təşkili və keçirilməsi, təcrübə mübadiləsi və bu sahədə maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

### *7. İnformasiya və ictimaiyyətlə əlaqələrin təşkili*

Müvəkkil bu sahədə fəaliyyətini “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi və informasiya sahibi olan dövlət qurumları, yerli özünüidarəetmə orqanları, habelə muxtar respublikanın kütləvi informasiya vasitələri ilə əməkdaşlığın daha da genişləndirilməsi və fəaliyyətimizin əlaqələndirilməsi istiqamətində davam etdirmişdir.

Ötən ildə də muxtar respublikada insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi sahəsində həyata keçirilən tədbirlər, habelə Müvəkkilin bu sahədə fəaliyyəti ilə bağlı məlumatlar müntəzəm olaraq kütləvi informasiya vasitələrində, həmçinin Müvəkkilin rəsmi internet səhifəsində işıqlandırılmışdır.

Bununla yanaşı, informasiya əldə etmək hüququnun daha səmərəli təmin edilməsi məqsədilə Müvəkkilin rəsmi internet səhifəsinin informasiya bazası daha da təkmilləşdirilmiş, informasiyaların mütəmadi yenilənməsi, həmçinin elektron müraciət səhifəsinin fəaliyyəti və ona texniki nəzarətin həyata keçirilməsi təmin edilmişdir.

2013-cü ildə Müvəkkil təsisatı insan hüquqlarının müdafiəsinin daha səmərəli həyata keçirilməsi məqsədilə dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq nəticəsində əldə edilən müsbət təcrübənin daha da inkişaf etdirilməsi və mütəmadi təkmilləşdirilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir.

Muxtar respublikada müstəqil bir qurum kimi yaradılan və fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil təsisatı bundan sonra da üzərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində səylərini davam etdirəcəkdir.

# Ü.İ.Bayramovanın Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) seçilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Q Ə R A R I

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Ülkər İmamqulu qızı Bayramova Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) seçilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 dekabr 2013-cü il*

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1174